# MƏNSUROV BƏHRUZ QƏHRƏMAN OĞLU



Mənsurov Bəhruz Qəhrəman oğlu 13 mart 1975-ci ildə Yardımlı rayonunun Telavar kəndində dünyaya göz açmışdır. Orta təhsilini doğma kəndində almışdır. Məktəbi bitirdikdən sonra o, 1993-cü ildə sənədlərini Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə təqdim etdi. Müsabiqə imtahanlarını müvəffəqiyyətlə verərək sərhəd qoşunları fakültəsinə daxil oldu. 13-17 mart hadisələri zamanı o, dövlətçiliyimiz uğrunda silahlı dəstənin zərərsizləşdirilməsində iştirak edir. Mart ayının 16-sı qarşıdurma zamanı Bəhruz ağır yaralanmış, lakin çoxlu qan itirdiyindən onu xilas etmək mümkün olmamışdı. Yardımlı rayonunun Telavar kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Bəhruz Qəhrəman oğlu Mənsurova ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Oxuduğu Yardımlı rayonu Telavar kənd orta məktəb onun adını daşıyır.